# Təzə ovçunun adı



Qərib Mehdi

***Erməni işğalçılarına qarşı Vətən müharibəsi davam edir. 30 ildən bəri işğal altında olan Qarabağ bölgəsi şəhər-şəhər, qəsəbə-qəsəbə, kənd-kənd – qarış-qarış yenilməz ordumuz tərəfindən azad olunur. Müharibə ab-havası hərənin qəlbində bir cür yaşayır. El qazilərindən qürur duyur, itkilərindən acıyır. Görünən odur ki, Azərbaycan ordusunun şücaəti sayəsində qələbə anı günü-gündən yaxınlaşır.***

***Hamı heç vaxt bu günkü qədər bir olmamışdı. Hamı heç vaxt vətən uğrunda canından keçməyə hazır olan Azərbaycan əsgərinin uğurları ilə bağlı bu günkü qədər fəxarət hissi keçirməmişdi. Heç vaxt arxa cəbhə ilə ön cəbhə bu günkü qədər can, söz, əqidə birliyinə sahiblənməmişdi. Hamı heç vaxt bu günkü qədər Ali Baş Komandanla birlikdə olmamışdı. Hamı heç vaxt bu günkü qədər uca Allahına tapınmamışdı. İsmayıl baba da, onun azyaşlı nəvəsi Atıl da yumruq kimi birləşən bu möhtəşəm hamının içindəydi.***

Hamı varlığı ilə televiziya kanallarına bağlanmışdı. Son xəbərlərdən eşidilən qələbə sədaları adamlara qol-qanad verirdi. Telekanallar da verilişlərini müharibə şəraitinə uyğunlaşdırmışdı. Əyləncəli verilişlər, macəra filmləri zamanı gələnədək geri itələnmişdi. Bunu hətta balaca Atıl da hiss edirdi. Atıl heyvanlar aləmindən çəkilən filmlərə – orada bir-birinə dost və düşmən olan vəhşi heyvanların yaşam tərzinə maraqla baxırdı. Şirlər, fillər, kərkədanlar, begomotlar, timsahlar, meymunlar və ceyrancüyürlərin lentə alındığı filmlərə tamaşa etməkdən doymurdu. Heyvanların da arasında mübarizə gedirdi. Güclü olan, cəld tərpənən həmişə qalib olurdu. Hələ o zürafə, kəl sürüləri!.. Təqib, təqib, yenə də təqib. Budur, meşə qanunu. Atıl özündən asılı olmayaraq həmişə günahsızların tərəfini saxlayırdı. Təmiz uşaq qəlbi ilə inanırdı ki, nə vaxtsa yurddan-yurda teylənənlərin təqibinə, günahsızlara qarşı zorakılığa son qoyulacaq. Vəhşi heyvanlar da bir-biri ilə dil tapıb əmin-amanlıq şəraitində yaşayacaqlar.

Atıl tez-tez İsmayıl babasından soruşurdu:

– Baba, televizorlar daha heyvanlar aləmindən çəkilən filmlər göstərmirlər. Sən tarix müəllimisən – hər şeyi bilənsən. De görüm, nə vaxt heyvanlar aləmindən çəkilən filmlərə baxa biləcəyəm?

İsmayıl baba içində bir qeyri-müəyyənlik olan ümidlə nəvəsinin sorğusuna cavab verirdi:

***– Darıxma. İndi mümkün deyil. Görmürsən, torpaqlarımızı qapsayan erməni işğalçıları ilə ölüm-dirim müharibəsi gedirg Atan Beyrək savaşdan qələbə sorağı ilə geri dönəndə arzuladığın filmləri nümayiş etdirmək zamanı çatacaq.***

***Uşaq marağı güclü olur. O, babasının sözlərinə inansa da, öz fikrində qalırdı. İnanırdı ki, birdən Afrikanın savannalarında – çöllərində yaşayan heyvanlar mavi ekranlara gələ bilər...***

İsmayıl babanın ailəsi vəhşi ermənilər tərəfindən öz doğma yurdlarından didərgin salınmışlardan idi. Hansı səmtdən, hansı bölgədən var-yoxları talan edilərək qovulmuşdular? İsmayıl baba bu sorğuya dəqiq cavab vermirdi. O, bütövü parçalamaq niyyətində deyildi. Aydın olan budur ki, 30 ildir qaçqın-köçkün statusu ilə şəhərli olmuşdular. Nə vaxtacan? Atalarımız bu sualı belə cavablandırır: «Su gələn arxa bir də gələr».

Hələ ki, Atıl evdə həsrətdən xəstə düşmüş Gülpəri nənəsinin nağılları, çöldə İsmayıl babanın gerçəkləri ilə ovunurdu. Evə işləyib çörək gətirən anası Çəməngül xanım idi. Qocalar pensiya alır, əlavə yardımlarla başlarını birtəhər girləyirdilər.

Atıl Gəncə şəhərində dünyaya göz açmışdı. Ancaq o, nənəsinin tərk etməyə məcbur olduğu kəndin həyatı ilə çox maraqlanırdı. Nənə nəvəsinə kəndin dərəsindən, təpəsindən, meşəsindən, gül-çiçəkli çəmənlərindən, diş göynədən sərin bulaqlarından – axarlı-baxarlı həyatından dönə-dönə danışırdı. Və bir də həyətlərində saxladıqları mal-qaradan, qoyun-quzudan, toyuq-cücədən, qaz-ördəkdən yerli-yataqlı məlumat verirdi. Uşaq dünyasında 30 illik keçmişin gerçəyi indi nağıla bənzəyirdi. Xüsusilə, tez-tez təkrarlanan təəssüfləndirici bir talan əhvalatı onun körpə qəlbini yaman sıxırdı. Hərdən də nənəsinin söylədikləri yuxusuna köçürdü. Nə yaxşı ki, gecdən-gec ortaya çıxan Ovçu Pirim varmış. Yoxsa bu talanın qarşısı necə alınardı?! Atıl xilaskar Ovçu Pirimin əhvalatını nənəsinə israrla yenidən söylədirdi. Dağılmışın yenidən qurulması Atıla ləzzət eləyirdi. Gülpəri nənə də söylədiklərini təkrar söyləyəndə sanki xəstə canının ağrıları çəkilib gedirdi.

Atıl:

– Nənə, xilaskar Ovçu Pirimin əhvalatını bir də danış.

Gülpəri nənə:

– Deyəsən, dediklərimdən bir şey anlayırsan. Ona görə Ovçu Pirimin əhvalatını sənin üçün bir də danışaram.

Atıl sevincək dillənirdi:

– Nənə, dərmanını gətirimmi? İç, özünə gəl, əhvalatı yaxşı danış.

Gülpəri nənə yatağında dikəlib özünü yığışdırır, dərisi qırışmış əllərilə nəvazişlə Atılın telini sığallayır, sonra gülümsünüb sözünə başlayardı:

– Qoy dərman sonraya qalsın. Sənin sualların mənim ən şəfaverici həblərimdi.

Atıl nənəsini tələsdirərdi:

– Onu bilirəm. Sən Ovçu Pirimin hünərindən danış.

Nənə ani fikrə dalır, yaddaşını təzələyir, sonra baş verənləri yerli-yataqlı danışmağa başlayırdı:

– Kənd yerində hər yaşayanların həyətyanı sahəsi olur. Bizimki də vardı. Varımız-dövlətimiz aşıb-daşırdı. Hamısını alın tərimizlə, qabarlı əllərimizin zəhmətilə başa gətirirdik. Mal-qaranın böyürtüsü, qoyun-quzunun mələrtisi, toyuq-cücənin cükkültüsü, xanımyerişli qazlarımızın qaqqıltısı, ördəklərimizin vağıltısı bərəkətin bolluğundan xəbər verirdi. Məhsullar yeyildikcə, bazara çəkib satıldıqca daha da artırdı. Günlərin birində halallığın nizamı pozuldu. Təknəyə haram əl uzandısa, o təknənin, o evin bərəkəti qaçar.

Ataların «meşə çaqqalsız olmaz» xəbərdarlığını qulaqardına vurub vaxtında nəzərə almamışıq. Bu arxayınçılıq bizə baha oturdu. Mal-qaramız, qoyun-quzumuz gün-gündən azalmağa başladı. Hamı bir-birindən soruşurdu: «Ayə, bu nə beladır ki, var-dövlətimiz göz qabağında sovrulub yoxa çıxır?». Hiyləgərlik, gizlin iş ömürlü olmur. Anladıq ki, meşədə pusquda duran, fürsət gözləyən tülkü, çaqqal, gorəşən, onları öz məqsədi naminə talana həvəsləndirən ayı gözümüzə yuxu gedən kimi mal-qaranın canına daraşır, apardığını aparır, gücü çatmadığını boğub tələf edirdilər. Ay aman! Bu gedişlə kənd əhli tamam müflis olacaqdı! Bəs neyləyək, yırtıcıların qabağına necə çıxaq? Ehtiyatsız, əliyalın kəndçilər qudurmuş, dadanmış vəhşilərlə bacara bilmirdilər. Bu gedişlə bu gün-sabah özümüz də onlara yem olacaqdıq. Qorunmaq üçün nə qılıncımız vardı, nə də tüfəngimiz. Bizə belə şeyləri saxlamağa icazə vermirdilər. Allaha yalvarırdıq ki, bizə hoyumuza çatan bir igid yetirsin. Axır ki, Allahın bizə yazığı gəldi, çiyni tüfəngli Ovçu Pirimi hayımıza yetirdi. Elə ovçunun qadası sinəmə tökülsün. Gözündən tük də yayınmırdı. Qoşalülə tüfəngini işə salıb dadamal yırtıcıların – tülkülərin, çaqqalların, ayıların dərsini verdi. Bundan sonra var-dövlətimiz bulaq kimi yenidən qaynamağa başladı.

*Elə bil hamıda xəritə aclığı yaranmışdı. Çoxları Azərbaycanın inzibati-siyasi xəritəsini axtarırdı. Hətta adamlar küçədə belə xəritəni yerə sərib işğaldan azad olunan rayonların ərazisi ilə daha yaxından tanış olurdular. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, milli mədəniyyətimizin beşiyi olan Şuşa yağı tapdağından azad olunmuşdu. Azad olunmuş məskənlərdə indi qalib Azərbaycan bayrağı dalğalanırdı. Düşmən sarsılıb. Onun təslim olmaqdan başqa heç bir əlacı qalmayıb. Təslim olmasa, son təxribatçıya qədər məhv ediləcək. İsmayıl baba bütün bunları, Vətənimizin can köynəyinə – xəritəmizə yeni səpkidə vurğunluğun səbəbini Atıla anladırdı*

Sinəsi atlanan Atıl sonu yaxşı qurtaran əhvalatdan qürurlanırdı:

– Nənə, Ovçu Pirimin əhvalatını sabah da söyləyərsən.

Gülpəri nənə nəvəsini arxayın salırdı:

– Danışaram, xilaskardan hər gün danışmaq lazımdır. Evimizdən-elimizdən bir Ovçu Pirim çıxana kimi danışacağam.

Atıl nənəsinin söyləməsindən razı qalsa da, tam ovunmurdu. Ekranlarda heyvanlar aləmindən bəhs edən filmlər yoxa çıxmışdı. O, bu cür filmlərə daha çox baxmaq istəyirdi. Nənəsinin söyləmələri ilə o filmlərdə gördükləri ürəkçüzücü görsənişlərdə bir uyğunluq olub-olmadığını özü üçün aydınlaşdırmaq istəyirdi. Filmlərdə seyr etdiyi bir mənzərə – şirlər və kəllərin qarşılaşması hər dəfə onun yadına düşəndə var bədəni silkələnirdi. Şirlər daha güclü olduqları üçün kəlləri qabaqlarına qatıb qovurdu. Kəllər qənimlərindən can qurtarmaq üçün gur axan çayın o biri sahilinə keçmək istəyirdilər. Quruda şir adlı ölüm onları təqib edirdi. Çayda isə timsah adlı ölüm acgözlüklə kəl sürüsünün yolunu gözləyirdi. Yazıq, günahsız kəl sürüsü iki ölüm arasında qalmışdı. Tülkülərin, çaqqalların kəllərə gücü çatmazdı. Onlar öz paylarını götürmək üçün hücumda olan güclüləri – şirləri savaşa həvəsləndirirdilər.

Hə, neçə vaxt idi Atıl belə filmlərə baxa bilmirdi. Ekranlar erməni işğalçılarına qarşı başlanan Vətən müharibəsinə bağlı sevincli-kədərli hadisələri yayımlayırdı. O müqəddəs müharibə ki, atası Beyrək də onun iştirakçısı idi. Vəhşi adlandırdığımız təbiətdə də, sivil adlandırdığımız cəmiyyətdə də vuruş gedirdi. Bəs ədaləti necə ayaqda saxlamalı? Atıl uşaq dərrakəsi ilə bunları çək-çevir etdikcə köksünü ötürüb arzusunu dilə gətirirdi: «Hardasan, ay Ovçu Pirim?».

***

***Ön cəbhədə ordumuza basılan ermənilər heyfini arxa cəbhədən – dinc əhalidən çıxır, mülki obyektləri, tarixi abidələri top, raket atəşinə tuturdular. Müharibə qanunlarına zidd olan bu vəhşiliyin nəticəsində ölənlərin, yaralıların sayı getdikcə artırdı. Vətən – Qarabağ yağılardan qarış-qarış azad olunduğundan bu itkilərin kədəri, acısı insanların qəlbində çağlayan sevinci üstələyə bilmirdi. Təqaüddə olan İsmayıl baba nəvəsi Atılın əlindən tutub küçəbəküçə gəzdirirdi. İstəyirdi ki, dağıntıları, yaralı evləri, qurbanlıq insanların nisgil və ümidlərini nəvəsi yaxından görməklə kifayətlənməsin, müşahidəsindən yaddaşına ötürsün.***

***Hər yan bayraq gətirmişdi. Üçrəngli Azərbaycan bayraqları ilə yanaşı qardaş Türkiyənin ay-ulduzlu, qırmızı bayraqları da (o cümlədən, dost Pakistanın da bayraqlarına rast gəlinirdi) inzibati binalarda, evlərin fasadında, şütüyən maşınların pəncərələrində, uşaqların əllərində dalğalanırdı. Tarix müəllimi bayraq mənasının nə olduğunu hövsələ ilə nəvəsinə başa salırdı.***

Elə bil hamıda xəritə aclığı yaranmışdı. Çoxları Azərbaycanın inzibati-siyasi xəritəsini axtarırdı. Hətta adamlar küçədə belə xəritəni yerə sərib işğaldan azad olunan rayonların ərazisi ilə daha yaxından tanış olurdular. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, milli mədəniyyətimizin beşiyi olan Şuşa yağı tapdağından azad olunmuşdu. Azad olunmuş məskənlərdə indi qalib Azərbaycan bayrağı dalğalanırdı.

Düşmən sarsılıb. Onun təslim olmaqdan başqa heç bir əlacı qalmayıb. Təslim olmasa, son təxribatçıya qədər məhv ediləcək. İsmayıl baba bütün bunları, Vətənimizin can köynəyinə – xəritəmizə yeni səpkidə vurğunluğun səbəbini Atıla anladırdı.

Qərb tərəfdən sürətlə şütüyən ambulansların – təcili tibbi yardım maşınlarının «yolu açıq saxlayın!» amaclı həyəcan siqnalları adamların canına üşütmə salırdı. Bu siqnallardan təsirlənən Atıl sual dolu baxışlarını babasının üzünə dikirdi. Babası müharibənin qaçılmaz şərtlərindən olan bu vəziyyətə də aydınlıq gətirirdi:

– Onların yükü döyüşdə yaralanan əsgərlərimizdir. Maşınlar maneəsiz yol istəyirlər. İstəyirlər ki, yaralıları xəstəxanalara tez çatdırsınlar. Vaxtı itirmək ölümün gəlişini asanlaşdırar.

***Əlavə izaha ehtiyac qalmadı. İsmayıl baba bir dəfə nəvəsini yanına alıb qanköçürmə məntəqəsinə getdi. Gəlişinin məqsədini açıb təkidlə dedi:***

***– Ya məndən, ya da nəvəmdən qan alın. Bilirəm ki, yaralı əsgərlərimizə qan lazımdır.***

***Baş tibb işçisi hər iki namizədin istəyini yerinə yetirə bilməyəcəyini dedi. «Siz yaşlısınız, nəvəniz də uşaqdır. Tibb elmi buna yol vermir».***

***Baba əliboş geri qayıtmaq istəmirdi. Onların ailəsindən kimsə bu borcu ödəməliydi. Gülpəri nənə xəstə olduğundan, ondan heç söz açmağa dəyməzdi. Atıl babasının çətin vəziyyətdən necə çıxacağını düşünürdü. Çıxış yolu tapıldı. İsmayıl babanın sifəti işıqlandı:***

***– Sabah gəlini göndərərəm, bu vacib işi yoluna qoyarsınız. O, cavandır, dözər, – sonra əlavə etdi. – Nəinki dözər, qanı əsgər qanına qarışdığı üçün hətta fəxr də edər.***

(davamı gələn sayımızda)

